Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Fəraqinin Azərbaycanda saxlanılan əlyazmalarının sirri

**Görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin (1724-1807) zəngin ədəbi irsi hələ sağlığında bütün türk dünyasının diqqətini özünə çəkib. Məhz bunun nəticəsidir ki, onun əsərlərinin çoxlu sayda əlyazma nüsxələri Özbəkistan, Tatarıstan Azərbaycan və Türkiyədə geniş yayılmışdı. Hazırda Avropa muzey və əlyazma fondları ilə bərabər Özbəkistan, Tatarıstan və Azərbaycanın əlyazma fondlarında mütəfəkkir şairin bir çox əlyazmaları qorunub saxlanılır.**

Azərbaycanda Məhtimqulu Fəraqinin divanlarının bir çox əlyazma nüsxələri olub. Şairin bu əlyazmalarının bir neçəsi haqqında onun ədəbi irsini ilk dəfə Azərbaycanda dissertasiya səviyyəsində araşdırmış Ramazan Qurbanov geniş bəhs edib. O, 1965-ci ildə şairin yaradıcılığına həsr etdiyi məqaləsində onun həm Türkmənistanda, həm də Azərbaycanda saxlanılan əlyazmaları haqqında geniş məlumat verib. Müəllif məqaləsində şairin Bakıda saxlanılan əlyazmaları haqqında yazıb: "Azərbaycan SSR Elmlər Akademiyasının Respublika Əlyazmaları fondunda isə Məhtimqulunun A-170/10538 və 5-1558/9590 şifrələrilə qeyd edilmiş iki əlyazması mühafizə olunmaqdadır. Bunlardan birində 55, ikincisində isə 54 vərəq vardır. Hər iki əlyazmada olan şeirlərlə tanış olmuşuq. Habelə burada XIV-17/6328 şifri altında Məhtimqulunun 164 səhifəlik bir daşbasması da saxlanmaqdadır. Bu, 1888-ci ildə çap olunmuşdur".

Hər üç nüsxənin Ramazan Qurbanov tərəfindən 1965-ci ildə üzə çıxarılmasına baxmayaraq, onlar tədqiqatçı alimlərin diqqətindən kənarda qalıb. Türkmənistan Prezidenti Qurbanqulu Berdimühəmədovun sərəncamına əsasən, Türkmənistan Elmlər Akademiyası Milli Əlyazmalar İnstitutunun təşkilatçılığı ilə 14-16 may 2014-cü il tarixdə Aşqabad şəhərində Məhtimqulu Fəraqinin anadan olmasının 290 illik yubileyinə həsr olunmuş "Məhtimqulu Fəraqi və ümumbəşəri mədəni dəyərlər" adlı beynəlxalq konfrans keçirilib. Böyük şairin yubileyi ilə əlaqədar Azərbaycanda da tədbirlər təşkil edilib. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi İsmixan Osmanlı həmin yubileylə əlaqədar olaraq şairin seçmə şeirlərindən ibarət kitab nəşr etdirib. Məhtimqulunun yaradıcılığına dair araşdırmaları davam etdirən İ.Osmanlı tədqiqatçı alim Ramazan Qurbanov tərəfindən adıçəkilən divanını yenidən üzə çıxarıb. Məlum olub ki, R.Qurbanovun təsvir etdiyi hər iki əlyazma nüsxəsi A-170/10538 və B-1558/9590, daşbasma nüsxəsi isə XIV-17/6328 şifri altında Azərbaycan MEA M.Füzuli adına Əlyazmalar İnstitutunun əlyazmalar fondunda saxlanılır.

Şairin iki əlyazma nüsxələrinin surətləri 14-16 may 2014-cü il tarixdə Aşqabad şəhərində konfransda iştirak edən AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli tərəfindən Türkmənistan Elmlər Akademiyasının prezidentinə və Türkmənistan Milli Əlyazmalar İnstitutunun direktoruna bağışlanılıb. Hər iki əlyazma nüsxəsi hələlik ayrıca kitab halında nəşr edilməyib.

Məhtimqulu Fəraqinin M.Füzuli adına Əlyazmalar İnstitutunun əlyazmalar fondunda saxlanılan daşbasma üsulu ilə basılmış divanının əlyazma nüsxəsi böyük maraq doğurub. Buna görə də, 22 iyun 2014-cü ildə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda kitabın elmi ictimaiyyətə təqdimat mərasimi keçirilib. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik T.Kərimli, Folklor İnstitutunun direktoru akademik M.İmanov, Türkmənistanın Azərbaycandakı fövqəladə və Səlahiyyətli səfiri T.Komekov və elmi ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi tədbirdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru akademik İ.Həbibbəyli tədbir iştirakçılarına kitab haqqında geniş məlumat verib.

Həmin tədbirdə qərara alınıb ki, divan transliterasiya olunaraq Azərbaycan və türkmən dillərində nəşr edilsin. Azərbaycan və Türkmənistan alimlərinin birgə əməyi nəticəsində divan bu günlərdə nəfis tərtibatda kitab şəklində nəşr olunub (500 nüsxə). Divanın mətninin transliterasiyasını Azərbaycan tərəfdən filologiya üzrə elmlər doktoru Paşa Kərimov, Türkmənistan tərəfdən isə Türkmənistan Milli Əlyazmalar İnstitutunun elmi işçiləri Rəhmanberdi Qodaraov və Rahimmammet Kurenov birlikdə həyata keçiriblər. "Divan"dakı şeirləri türkməncədən Azərbaycan dilinə çevirən, qeyd və izahların müəllifi və nəşrə hazırlayanı AMEA Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi İsmixan Osmanlıdır.

Kitabın girişində onun elmi redaktoru AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəylinin "Böyük türkmən şairi Məhtimqulu Fəraqi və Azərbaycan ədəbiyyatı" adlı irihəcmi elmi məqaləsi yerləşdirilib. Kitaba həmçinin f.ü.e.d. Paşa Kərimovun "Məhtimqulu divanının yeni nüsxəsi" və İsmixan Osmanlının "Məhtimqulu Fəraqi divanının nüsxələri" adlı məqalələri də daxil edilib.


Divanın üz qabığı


Divanın titul vərəqi

Tədqiqatçı alim Ramazan Qurbanov daşbasma divanının 1888-ci ildə çap olunduğunu bildirib. Lakin İsmixan Osmanlı apardığı araşdırmalar nəticəsində müəyyən edib ki, şairin həmin "Divan"ı 1888-ci ildə deyil, 1914-cü ildə daşbasma üsulu ilə Buxara şəhərində çap edilib.

Divan 164 səhifədən ibarətdir. Kitabdakı vərəqlər çox yaxşı vəziyyətdədir və oxunaqlıdır. Şeirlər yazılan vərəqlərin bir çoxu iki sütunludur və hər iki sütunda şeir yazılıb. Divanda şairin cəmi 187 şeiri, "Can içində" və "Məhşərnamə" adlı iki poeması var. Bundan başqa, naməlum şəxs tərəfindən boş vərəqlərə sonradan iki şeir də yazılıb. Kitabdakı 179 şeirdə şairin adı - Məhtimqulu, 10-da isə təxəllüsü - Fəraqi yazılıb.

Daşbasma divanının cildi kartondandır. Amma cildlənənə qədər onun üz qabığı və son vərəqləri cırılıb. İsmixan Osmanlı apardığı araşdırmalar nəticəsində həmin vərəqin surətini əldə edib. Həmin vərəq Şərq ornamentləri ilə bəzədilib. Vərəqin mərkəzindəki şaquli düzbucaqlıda yazılıb: Divane-həzrəti Məxdumqulu - Həzrət (müdrik) Məxdumqulunun divanı.

"Divan"ın şairin adı yazılan titul vərəqində isə belə yazılıb:

"Əlləhummə yəmurru kullu-l-yəra. Divanu-həzrət Məxdumqulı rəhmətullah aleyhi. Numul-mavlə va numun-nasırın".

Divanın sonu isə belə qurtarır:

Vəllahu aləm bissəvab
Təmam şod
Divani-həzrət Məxdumqulu rəhmətullah

Türkmən tədqiqatçıları tərəfindən dəqiq faktlarla müəyyən edilib ki, Məhtimqulu Fəraqinin haqqında danışılan "Divan"ını əslən türkmən olan Qurbanberdi Gürgeni Xocagəldi oğlu 1914-15-ci illərdə Buxarada daşbasma üsulu ilə çap etdirib.

Türkmən alimləri araşdırmalar nəticəsində müəyyən ediblər ki, Qurbanberdi Gürgeni 1865-ci ildə İranın Gülüstan vilayətində, özünə təxəllüs götürdüyü Gürgen şəhərinin yaxınlığında anadan olub. O, yerli məktəbdə və mədrəsədə oxuyub, həmçinin Buxarada mədrəsəni qurtarıb, XX əsrin əvvəllərində yerli məktəbdə türkmən uşaqlarına dərs deyib. Türkmən, ərəb və fars dillərini bilən Gürgeni axund olub və 1930-cu ildə vəfat edib. Onu Azadi və Məhtimqulunun qəbrinin yanında, İranın Gülüstan vilayətinin Ağtokay kəndində dəfn ediblər.

Araşdırmalar nəticəsində Məhtimqulu Fəraqinin bu "Divan"ının əvvəllər kimə məxsus olduğu və AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun kitabxanasına necə düşdüyü də məlum olub. Belə ki, bu "Divan"ın bir neçə vərəqinə vurulmuş şəxsi möhürdəki addan məlum olub ki, o, əvvəllər Azərbaycanda əlyazma və qədim kitablar kolleksioneri kimi tanınan Novruz Ağayevə məxsus olub. Məlum olub ki, Novruz Ağayev XX əsrin 50-ci illərində Əlyazmalar İnstitutunda əlyazmaların mühafizəçisi vəzifəsində çalışıb. Ehtimal olunur ki, bu kitabı digər qiymətli əlyazma və kitablarla bərabər sağlığında o, özü Əlyazmalar İnstitutuna bağışlayıb. Kitabın titul vərəqində onun 1953-cü ildə yoxlanıldığı barəsində qeyd var.

**ƏLİYEVA NƏRGİZ MƏMMƏD QIZI**
**AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi**